# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№260/5** **22 yanvar 2015-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2014-cü il 1 sentyabr tarixindən 10 oktyabr tarixinədək və 13 oktyabr tarixindən 25 noyabr tarixinədək keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələri barədə**

«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununu, «Azərbaycan Republikasının Auditorlar Palatası haqqında» Əsasnaməni, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2000-ci il 1 aprel tarixli 52/3 saylı qərarı ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma qaydaları"na Auditorlar Palatası Şurasının 2010-cu il 20 aprel tarixli 208/5 saylı və 2013-cü il 11 oktyabr tarixli 245/3 saylı qərarlarını rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2014-cü ildə keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrini müzakirə edərək Auditorlar Palatası Şurası

**Q Ə R A R A   A L I R:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların 2014-cü il 1 sentyabr tarixindən 10 oktyabr tarixinədək və 13 oktyabr tarixindən 25 noyabr tarixinədək keçirilən ixtisasartırma kurslarında iştiraklarının nəticələrinə dair İxtisasartırma Komissiyasının protokolu nəzərə alınsın (1 və 2 saylı protokol əlavə olunur).

2. Auditorların ixtisasartırma qaydalarının 6.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri - Məmmədov Daşqın Natiq oğluna, Məmmədov Fuad Okteadr oğluna və Məmmədov Nəciməddin Əlövsət oğluna ixtisasartırma kursunda il ərzində üzrsüz səbəbə görə iştirak etmədikləri üçün xəbərdarlıq edilsin və növbəti illərdə təşkil ediləcək ixtisasartırma kurslarında iştirakları təmin edilsin.

3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Auditorların ixtisasartırma komitəsinə (A.Qurbanov) tapşırılsın ki, auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılıq (lisenziya) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəqiyyətlə vermiş və xüsusi razılıq (lisenziya) almamış şəxslərin Palatanın növbəti illərdə keçirdiyi ixtisasartırma kurslarında iştirakları təmin edilsin.

4. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, ixtisasartırma kurslarında üzrsüz səbəbdən iştirak etməyən auditorların şəxsi işlərində müvafiq qeydlərin aparılması təmin edilsin.

5. Bu qərarın mətninin və protokollarının Palatanın internet səhifəsində yerləşdirilməsi F.Qarayevə və R.Ələkbərova tapşırılsın.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**